**Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nında nəzərdə tutulan tədbirlərin icrası barədə Əmlak Məsələləri Dövlət Komitəsinin illik Hesabatı**

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2012-ci ildə bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin 2012-ci il üçün İş Planı" təsdiq edilmişdir.

Həmin İş Planında, "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" üzrə konkret tədbirlər göstərilmiş, komitənin aidiyyəti bölmə və qurumları üzrə görüləcək işlər və nəticə indikatorları müəyyən edilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə komitənin sözügedən İş Planı üzrə bir sıra tədbirlərin icrasına başlanılmış və hazırda davam etdirilir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq, komitə sədrinin vətəndaşların birbaşa və səyyar qəbulunun qrafiki hazırlanmış və ayda bir dəfə həyata keçirilir.

Eyni zamanda "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirin həyata keçirilməsi məqsədi ilə komitədə vətəndaşların ərizə və şikayətlərinin qəbulu və qeydiyyatı "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Dünya Bankının Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi çərçivəsində

hazırlanmış Avtomatlaşdırılmış Sənəd Dövriyyəsi İnformasiya Sistemi (ASDİS) vasitəsi ilə aparılır.

Bundan başqa, elektron poçt vasitəsilə ərizə və şikayətlərin qəbulu işinin təşkili məqsədi ilə komitənin office@emdk.gov.az elektron ünvanına daxil olmuş müraciətlər müvafiq şöbədə qeydiyyata alınaraq cavablandırmaq üçün aidiyyəti üzrə struktur bölmələr və qurumlara çatdırılır.

Milli Fəaliyyət Planına uyğun olaraq, maraqlar toqquşmasının qarşısının alınması istiqamətində komitədə iş aparılır. 2013-cü ildə maraqlar toqquşmasının qarşısının alınması üzrə treninqlərin təşkil edilməsi nəzərdə tutulmuşdur.

Sözügedən Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı komitənin ərazi şöbələrində çalışan dövlət qulluqçuları üçün 2012-ci il 9 oktyabr və 22 dekabr tarixlərində “Dövlət qulluqçularının etik davranış qaydaları” mövzusunda seminarlar keçirilmişdir.

Eyni zamanda etik davranış məsələləri üzrə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2012-ci ildə görülmüş tədbirlər barədə illik hesabatın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya göndərilməsi və ictimaiyyətə açıqlanması təmin edilmişdir.

Komitənin internet saytında “Etik davranış qaydaları” bölməsi yaradılmışdır. Həmin bölmədə müvafiq normativ hüquqi aktlar və etik qaydalar öz əksini tapmışdır.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması tədbirləri ilə bağlı qeyd edilməlidir ki, dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqları mövcud qanunvericiliyə uyğun qaydada qorunur. İddiaçılar tərəfindən daxil olan ərizə və şikayətlərə təxirə salınmadan baxılaraq müvafiq tədbirlər görülür.

Eyni zamanda dövlət satınalmaları keçirilən zaman korrupsiya halları aşkar edilərsə bu barədə hüquq mühafizə orqanlarına müvafiq məlumatlar təqdim olunacaqdır.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanmışdır. Layihədə daşınmaz əmlak üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi üçün müəyyən edilmiş 20 günlük müddətin 7 iş günü müddətinə, daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi üçün müəyyən edilmiş 5 iş günlük müddətin 1 iş günü müddətinə, əmlak bölmələrinin sayının 15-dən 10-a endirilməsi və digər dəyişikliklər nəzərdə tutulmuşdur.

Daşınmaz əmlak bölmələrinin sayının və hüquqların qeydiyyatı üçün qanunvericiliklə müəyyən edilmiş müddətlərin azaldılması istiqamətində hazırlanmış layihə baxılması üçün müvafiq təşkilatlara göndərilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı Şəhər Ərazi İdarəsinin yeni yaradılmış Yasamal, Suraxanı, Nəsimi və Nizami rayon şöbələri üçün ayrılmış binalarda təmir işləri aparılmış, Səbail rayon şöbəsi üçün isə binanın yeri müəyyənləşdirilmişdir. Şöbələr fiberoptik xətlərlə, kompüter, printer və ofis mebelləri ilə təchiz edilmişdir.

Müraciət edən vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yaxşılaşdırılması məqsədilə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı Şəhər Ərazi İdarəsində və Sumqayıt Ərazi İdarəsində elektron növbəlilik aparatları quraşdırılmışdır.

Əhalinin göstərilən xidmətlərin səviyyəsinə münasibətinin öyrənilməsi məqsədilə bütün ərazi idarələrində və onların tabeliyində olan rayon şöbələrində şikayət və təklif qutuları yerləşdirilmişdir. Qutular iş gününün sonunda açılaraq onlara daxil olan müraciət, şikayət və ya təkliflər ərazi idarələrində yaradılmış komissiyalar tərəfindən araşdırılır və müvafiq tədbirlər görülür.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrinin göstərdikləri xidmətlər müqabilində dövlət rüsumları və xidmət haqlarının ödənilməsinin avtomatlaşdırılması və ödəniş sistemləri infrastrukturuna texnoloji inteqrasiyası məqsədilə müvafiq şəbəkə əlaqəsinin və proqram təminatının hazırlanması, həmçinin uyğun bir ödəniş sisteminin yaradılması məqsədilə köməklik üçün “Kapital Bank”a müraciət olunmuşdur.

Bu işlərin görülməsinin mümkünlüyü ilə əlaqədar texniki imkanların və görüləcək işlərin alqoritminin müəyyənləşdirilməsi məqsədilə “Kapital Bank”ın mütəxəssisləri ilə bir neçə görüş keçirilmişdir.

İlkin mərhələdə bütün məsələlər ətrafında prinsipial razılıq əldə edilmiş və tələblər müəyyən edilmişdir. Kapital Bankın aidiyyəti struktur bölmələri ilə danışıqlar aparıldıqdan sonra Bank və Xidmət arasında fiberoptik kabelin çəkilişi üçün qiymət təklifi alınmışdır. Həmçinin proqram təminatının yazılması istiqamətində də müəyyən işlər aparılmışdır. Ümumiyyətlə, Əmlak Məsələləri Dövlət Komitəsinin öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdiyi elektron xidmətlərlə bağlı qeyd edilməlidir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı" ilə Əmlak Məsələləri Dövlət Komitəsi üzrə müəyyən edilmiş elektron xidmətlərdən beynəlxalq layihələr çərçivəsində ayrılmış vəsait hesabına üçünün (daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu; müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı; daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu) tam işləməsi cari ilin may ayından etibarən təmin edilmişdir. Müraciət edən şəxslər öz elektron imza kartlarından istifadə etməklə mövcud elektron xidmətlərdən sərbəst və maneəsiz şəkildə istifadə edə bilərlər.

Göstərilən elektron xidmətlər sayəsində hər bir vətəndaş daşınmaz əmlakını qeydiyyatdan keçirmək üçün ərazi qeydiyyat idarələrinə internet vasitəsi ilə on-layn müraciət edə bilər. Hazırda məhdudiyyət haqqında arayışların verilməsi və təkrar bazardan qayıdan əmlakların qeydiyyatı ilə bağlı müraciətlər elektron qaydada qəbul olunur. Gələcəkdə isə ipotekanın qeydiyyatı, ləğvi, hüquqların tanınması kimi proseslərin də elektron formada aparılması nəzərdə tutulub. Bu məqsədlə hazırlanmış “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq razılaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim edilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən göstərilən Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu, Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu, Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı ilə bağlı 2012-ci ilin may-dekabr ayları ərzində hüquqi və fiziki şəxslərdən 1560 elektron müraciət daxil olmuşdur. Bunlardan 1495-i müsbət həll olunmuş, 7-nin icrasından imtina olunmuş, 58-i isə icra olunmaqdadır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı" ilə Əmlak Məsələləri Dövlət Komitəsi üzrə müəyyən edilmiş elektron xidmətlərdən müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı ilə əlaqədar Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzinin internet saytının elektron xidmətlər bölməsində aidiyyəti üzrə tələb olunan sənədlər və sifariş forması yerləşdirilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”na uyğun olaraq, Əmlak Məsələləri Dövlət Komitəsi və Dünya Bankının birgə həyata keçirdiyi “Daşınmaz Əmlakın Qeydiyyatı” Layihəsi çərçivəsində ictimai agahlıq komponenti üzrə bir sıra tədbirlər həyata keçirilmişdir.

“Dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrına dair normativ-hüquqi aktları” toplusu nəşr edilmişdir və aidiyyəti üzrə çatdırılması təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsində müvafiq işlər davam etdirilir. Sözügedən Milli Fəaliyyət Planının icrası ilə bağlı komitənin növbəti il üçün İş Planı təsdiq edilmişdir.